# «Bitki karantini haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə

Azərbaycan Respublİkasının Qanunu
Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:
I. «Bitki karantini haqqında» Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli, 70-IQ saylı Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 1-ci maddənin ikinci abzasında «əkin materiallarının və digər bitki» sözləri «əkin materiallarının, bitki və digər» sözləri ilə əvəz edilsin.

2. 6-cı maddədə:

beşinci abzas aşağıdakı redaksiyada verilsin: «idxal, ixrac və tranzit daşımaları zamanı karantin nəzarəti altında olan kənd təsərrüfatı, meşə, dekorativ (bəzək)» bitkilərinin, onların hissələrinin (çilik, ting, soğanaq, kök yumruları, çiçək, meyvə və s.), tumlarının və əkin materiallarının, karantin nəzarəti altında olan belə yüklərin qablaşdırılması üçün nəzərdə tutulmuş və karantin orqanizminin daşıyıcısı ola bilən materialların karantin yoxlanması üzrə müvafiq tədbirlər görür;
karantin nəzarəti altında olan yüklərin fitosanitar sertifikatını verir»;
yeddinci abzasda «yoluxmadan» sözü «sirayətlənmədən» sözü ilə əvəz edilsin;
onuncu abzasda «bitki karantini sertifikatını verir» sözləri «bitki karantin sertifikatı və idxal karantin icazəsi verir» sözləri ilə əvəz edilsin.

3. 7-ci maddənin dördüncü abzasında «bitkilərin və alaq otlarının karantin və təhlükəli ziyanvericiləri və xəstəlikləri» sözləri «bitkilərin karantin və digər təhlükəli zayanvericiləri, xəstəlikləri və alaq otları» sözləri ilə əvəz edilsin.

4. 8-ci maddədə:

ikinci abzas aşağıdakı redaksiyada verilsin: «karantin obyektini (orqanizmini)» yaya bilən kənd təsərrüfatı, meşə və dekorativ (bəzək) bitkiləri, onların hissələri (çilik, ting, soğanaq, kök yumruları, çiçək, meyvə və s.), tumları və əkin materialları»;
altıncı abzasda «binaları, kənd təsərrüfatı» sözləri «binaları, sərhəd buraxılış məntəqələrinin əraziləri, kənd təsərrüfatı» sözləri ilə əvəz edilsin.
5. 9-cu maddənin birinci hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:
«Dövlət bitki karantini xidmətinin vəzifəli şəxsləri bitki karantin nəzarətini həyata keçirərkən xüsusi vəsiqəyə malik olmalı və müəyyən olunmuş qaydada fərqləndirici nişanlı geyim formasında olmalıdırlar».

II. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 19 dekabr 1997-ci il

№ 415-IQD